UOT 94(479.24)

RƏNA ƏSƏDOVA
tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA Tarix İnstitutu, Azərbaycan Universiteti
https://orcid.org/0000-0002-0310-6201
renabeyler@gmail.com

QAZAX BÖLGƏSİ: TARİXİ, İQTİSADİ VƏ ETNO-DEMOQRAFİK VƏZİYYƏTİ (XVI -XVIII ƏSRLƏR)

DOI: https://doi.org/10.36719/2708-065X/110/49-54

XVI əsrin sonundan etibarən Qazax bölgəsində önəmli ictimai-siyasi hadisələr, etno-demoqrafik proseslər baş verdi. Səfəvi-Osmanlı müharibələri yerli əhalinin sayında, etnik tərkibində və iqtisadi vəziyyətində ciddi dəyişikliklərə səbəb oldu. Bölgənin XVIII əsrin 20-30-cu illərində Osmanlı tabeliyinə keçməsi, ardınca Səfəvi hakimiyyətinin bərpa edilməsi, Nadir şah Əfşarın ağalığı həm yerli əhalinin təsərrüfat həyatına, həm də etno-demoqrafik vəziyyətə bir daha təsir göstərdi. Təqdim edilən məqalədə bu məsələlər Osmanlı dəftərdarlarının tərtib etdikləri müfəssəl və icmal dəftərləri əsasında araşdırılmışdır.

Açar sözlər: Qazax bölgəsi, Osmanlı idarəçiliyi, dəftərdar, müfəssəl və icmal dəftərləri, Səfəvi dövrü, etno-demoqrafik dəyişikliklər.

Giriş. Səfəvi hökmdarlarının XVI yüzilliyin başlanğıcında Cənubi Qafqazda böyük fəthləri Azərbaycanın şimal-qərb bölgəsinin sonrakı tarixində əhəmiyyətli iz qoydu. Şah I İsmayıl və varislərinin güclü mərkəzləşdirilmiş dövlət yaratmasında türk tayfaları çox böyük rol oynadılar. Səfəvi hökmdarları Azərbaycanın şimal-qərb bölgəsinin idarəsini və həmin istiqamətin mühafizə olunmasını Qazax tayfasına tapşırmaqla, bu tayfanın nüfuzunun daha da artmasına səbəb oldu. O zamandan bu bölgənin Qazax ölkəsi adlanması, hakiminin əmir titulu daşıması da həmin diqqətin təzahürü idi. Həmin əsrin 70-ci illərində Səfəvi-Osmanlı müharibələrinin yeni mərhələsinin başlanması ilə vəziyyət dəyişdi. 1578-ci ilin avqust ayında Osmanlı qüvvələri Şərqi Gürcüstanı işğal edib Tiflisdən Şirvana doğru irəlilədiyi zaman Osmanlı qoşunlarının təzyiqi altında Səfəvi ordusu bu ərazilərdən geri çəkildi [1, s.191; 9, s.241]. Azərbaycanın şimalında məskunlaşmış Qacar, Qaramanlı, Bayat və başqa tayfalar Səfəvi hərbi qüvvələri ilə birlikdə Cənuba doğru hərəkət etdilər. Lakin Qazax tayfası fərqli davrandı, onlarla birlikdə Cənuba çəkilməyərək, öz yurdunda qaldı. Qazaxlı tayfa başçısı Nəzər xan Osmanlı sultanının hakimiyyətini qəbul edərək, ölkəsini öz nəzarətində saxladı.

Osmanlı qoşunu Kartli hökmdarı "xain" Manuçöhrün torpaqlarına hücum edib Axısqa qalasını tutduqdan sonra, 1587-ci il avqustun 23-də Tumanis qalasına yaxınlaşdılar. Oradan Qazax xanının yanına elçi göndərib vəd etdilər ki, əgər o, İslam yoluna qayıdıb müqavimət göstərməzsə, onu və döyüşçülərini bağışlayacaqlar. Qazax xanı bu şərtləri qəbul etdi və avqustun 27-də Fərhad paşanın ordugahına aparıldı, orada ona fəxri qəbul təşkil edildi. Qazax xanına qiymətli daş-qaşla bəzədilmiş qılınc və kəmər hədiyyə verildi, ata-baba torpaqları da onun özünün idarəçiliyində saxlandı [14, c.88]. Nəzər xan öz ölkəsinin sancaqbəyi təyin edildi.

Bununla da belə nəticə çıxarmaq olar ki, Osmanlı hakimiyyəti təmsilçiləri yerli idarəetmə aparatının formalaşdırılmasını və ərazi-inzibati bölgüsünü Səfəvi dövləti ilə müharibənin başa çatmasından sonrakı mərhələyə saxlamamış, yeni tabe etdikləri bölgələrin inzibati-idarəçiliyi məsələsi ilə qələbə qazandıqları döyüşdən dərhal sonra yaxından məşğul olmuşdular. Osmanlı dövlətinin idarəçiliyində əsas inzibati vahid *sancaq* (*liva*) olduğu üçün ilk addım kimi sancaqbəyinin təyin edilməsi baş verirdi. Ardınca da bir neçə *sancaq* əsasında yaradılan *bəylərbəyilik* (*vilayət və ya əyalət*) məsələsinə baxılırdı. Vilayətin hakimi – bəylərbəyi (mir-i miran) sultanın mütləq hakimiyyətini təmsil etdiyinə görə, ona həvalə olunmuş vilayətin optimal idarə olunması üçün *Divan* yaradılırdı [12, s.299]. "İcmal dəftəri"ndə bu qurumun adı "Divan-ı Gəncə" (Gəncə divanı) kimi qeyd edilmişdir.

Bəylərbəyi vilayətin hərbi məsələlərinin və burada əmin-amanlığın təmin edilməsində, sultanın bütün əmrlərinin və qanunların dərhal və əksiksiz icrasına nəzarət məsələsində məsul idi. "Gəncə-Qarabağ vilayətinin icmal dəftəri"nin girişində olan və həmçinin ayrı-ayrı nahiyələrlə bağlı məlumatlardan aydın olur ki, Osmanlı hakimiyyəti nümayəndələri vilayətin idarə edilməsi məsələlərini nizama salmaq məqsədi ilə Osmanlı məmurları ilə yanaşı, Səfəvi dövlətində idarəetmə aparatında işləmiş yerli məmurları da işə cəlb etməklə, Səfəvi dövründən qalma sənədlərdən də istifadə edərək, vilayətin ərazi-inzibati bölgüsünü aparmış və onların rəhbərlərini təyin etmişdilər.

1590-cı ildə İstanbul müqaviləsinin imzalanması ilə Səfəvi-Osmanlı müharibəsinin 1578-ci ildən başlamış ikinci mərhələsi sona çatdı. O zamana qədər ələ keçirdikləri vilayətlərdə yerli idarəetmə aparatını formalaşdırmış osmanlılar, vergiləri nizamlı şəkildə toplamaq məqsədi ilə müfəssəl dəftərin və əldə edilən gəlirin paylaşdırılması üçün də icmal dəftərinin hazırlanmasına başladılar.

Türkiyə tarixçisi ***F.M.Kırzıoğlu*** "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"ndəki faktik materiallar əsasında Qazax bölgəsinin əzəli türk yurd olduğunu isbat etmişdir. O, erkən orta əsrlərdən başlayaraq müxtəlif mənbələrin məlumatları ilə icmal dəftərdəki məlumatları müqayisə edən görkəmli tarixçi Azərbaycanda, o cümlədən Gəncə-Qarabağ əyalətində türk tayfalarının varlığının davamlılığını və eyni ərazi daxilində yaşamalarını sübut etmişdir. Məhz ilk dəfə F.M.Kırzıoğlu XVI əsrin sonlarında Gəncə-Qarabağ vilayətinin Osmanlı idarəsi dövrünün ərazi-inzibati bölgüsü məsələsinə və etnik vəziyyətinə tam aydınlıq gətirmişdir [11, s.212]. Onun Gəncə-Qarabağ vilayətində yaşamış tayfa və camaatların yayılma coğrafiyası haqqında çox dəyərli tədqiqatı isə, sırf Gəncə-Qarabağ vilayətinin icmal dəftərinin materialları əsasında yazılmış yeganə əsəridir. Digər tədqiqatlarında isə, icmal dəftərindən tamam başqa mövzuların araşdırılmasında köməkçi, əlavə mənbə kimi istifadə etmişdir.

XVI əsrin sonlarında Osmanlı dövləti yenicə imperiyaya qatılmış Gəncə-Qarabağ əyalətinin inzibati-ərazi bölgüsündə xüsusi dəyişikliklər etməyə çalışmamış, Səfəvilərin zamanında mövcud olan inzibati bölgünü saxlamışdı. Şah I İsmayıl və I Təhmasib dövründə olduğu kimi, Tiflisə qədər olan ərazilər Osmanlı ağalığı dövründə də eyni ilə Gəncə-Qarabağ əyalətinin tərkibində qalmışdı.

"Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"ndəki məlumata görə bu əyalətin ərazisi keçmiş Qarabağ bəylərbəyiliyinin ərazisinə uyğun gəlirdi və 7 sancağa bölünmüşdü. Bu sancaqlardan biri Qazax bölgəsini və ya o zaman adlandığı kimi "Qazax ölkəsi"ni əhatə edən Axıstabad (digər adı Böyükçay – R.Ə.) livası (sancağı) idi. Bu livaya (sancağa) 7 nahiyə (mahal): Axıstabad, Quzey Axıstabad, Güney Axıstabad, Dağlıq Axıstabad, İncə (İncəsu Aranı), Dağlıq İncə və Çuvar daxil idi [6, s.40]. Maraqlıdır ki həmin qaynağa əsaslanan tədqiqatçı T.Nəcəfli Axıstabad sancağının 5: Axıstabad, Quzey, Güney, Dağlıq İncə və İncə nahiyələrindən ibarət olduğunu qeyd etmişdir [8, s.8]. Bizim fikrimizcə, tədqiqatçı H.Qaramanlı bu dəftərlər üzrə davamlı araşdırma apardığına görə, onun "Qazax bölgəsinin daxil olduğu Axıstabad livası 7 nahiyədən ibarət idi" – fikri daha inandırıcı görünür.

"İcmal dəftəri"ndəki məlumatlardan aydın olur ki, XVI əsrin 80-ci illərində Səfəvi-Osmanlı müharibəsinin gedişində Azərbaycanın əksər əraziləri, o cümlədən Qarabağ bəylərbəyiliyinin də Osmanlı hakimiyyəti altına keçməsi ilə bəylərbəyilikdə yaşayan yerli əhalinin böyük bir hissəsi ata-baba torpaqlarını tərk etmək məcburiyyətində qaldı. Yerli türk əhalinin şiə məzhəbində olan hissəsi, həmçinin Dağlıq Gəncə və Axıstabad sancağında yaşayan qızılbaş Zülqədər tayfasından olan Şəmsəddinli camaatı, Qacar, Qaramanlı, Bayat tayfalarının bəzi oymaqları Səfəvi qoşunları ilə birlikdə cənuba doğru çəkildilər. Lakin qazaxlılar digər qızılbaş tayfaları kimi yaşadığı bölgəni tərk etməyərək, ata-baba yurdlarında qaldılar və Osmanlı hakimiyyətini qəbul etdilər [8, s.8].

Səfəvi-Osmanlı qoşunları arasındakı döyüşlər zamanı insan tələfatı və əsir düşənlərlə yanaşı, Azərbaycanın işğal edilmiş bölgələrində, o cümlədən Qazax sancağında yaşayan şiə əhalinin cənub bölgələrinə - Qaradağ və Təbriz əyalətlərinə köçməsi baş verdi. Şiə təriqətindən olan bu köçkünlər qonşu əyalətlərə köç etməklə, həm öz təriqətində qalmaq imkanını saxladılar, həm də təriqətini dəyişmədiyinə görə Osmanlı müftilərinin fitvalarının onlara qarşı tətbiq edilməsindən xilas oldular. Osmanlı idarəsində qalan və köçə bilməyən şiə əhali isə üzdə təriqətini dəyişib sünniliyə keçməklə vəziyətdən çıxa bildi. Lakin Səfəvi qoşunları Osmanlı ordularını tutduqları ərazilərdən çıxardıqdan sonra təriqətlərini dəyişmiş bu insanlar təkrar əvvəlki təriqətlərinə döndülər. Belə insanları həm Səfəvi, həm də Osmanlı məmurları etibarsız sayırdılar və onlar hər iki tərəfin hakimiyyət nümayəndələrinin sərt münasibətləri ilə üzləşirdilər. Səfəvilər həmin şəxslərə mənəvi zərbə olan *dönük* damğası vurur, osmanlılar

isə cərimə tətbiq edərək onlara qeyri-müsəlmanlardan aldıqları can vergisi – olan cizyə vergisini ödətdirirdilər [8, s.9].

Səfəvi-Osmanlı müharibəsi zamanı bölgədə yaşayan müsəlman şiə əhali doğma torpağını tərk etdiyi üçün "İcmal dəftəri"ndə bir çox kəndlərdə insanların yaşamadığı, kəndlərin boş olduğu göstərilmişdir. XVI əsrin son onilliklərində bölgədə baş verən hərbi-siyasi proseslər nəticəsində əhalinin miqrasiyası, onun yerləşməsi və etnik strukturunda müəyyən dəyişikliklər baş verdi. Lakin Osmanlı-Səfəvi qarşıdurması zamanı baş vermiş əhalinin məcburi yerdəyişməsinin nəticələri daha təsirli olmuşdur.

"İcmal dəftəri"nin Qazax sancağının əhalisi və etnik tərkibi haqqında verdiyi məlumatlar mühüm əhəmiyyət kəsb edir. Dəftərdə Osmanlı işğalı və ağalığı zamanı (1588-1606) daimi yaşayış yerini tərk etməyərək Osmanlı hakimiyyəti altında qalan

Qaramanlı tayfasına məxsus üç oymağın adı çəkilir: Şəmkir Aranı nahiyəsində və Gəncə vilayətinin Axıstabad sancağında qədimdən Qaramanlı və Kəsəmənli camaatı yaşayırdı. Axıstabad Aranı nahiyəsinin Yalnızağac kəndində Qaramanlı camaatı, Xanlıq kəndində isə Qaramanlı tayfasının Rüstəmbəyli camaatı yaşayırdı. Gəncədən şimal-qərbdə, Tovuz və Şəmkir Aranı nahiyələrində Şəmsəddinlilər, həmin nahiyənin Xınam arxı kəndində isə həmin tayfanın Qapanlı camaatı yaşayırdı [4, s.11, 22, 34, 112; 11, s.206-208].

"Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"ndə əks olunmuş timar sahibləri, kənd və camaat adları, ödənilən vergi növü haqqında məlumatlar Qazax bölgəsində əhalinin etnik tərkibi haqqında qiymətli informasiya verir. Bütün bu məlumatlar XVI əsrin sonunda Qazax sancağında Azərbaycan türklərinin əhalinin əksəriyyətini təşkil etdiyini və azərbaycanlı əhalinin də çox hissəsinin qoyun vergisi ödəyən elat tayfaları olduğunu göstərir. Timar sahibləri də türk adları daşıyanlardır.

1606-cı ildə şah I Abbas (1587-1629) böyük qoşunla Gəncədəki Osmanlı qarnizonunu məğlub etdi, ardınca Lori, Tiflis və Dmanis qalalarını ələ keçirib Osmanlı qoşunlarını qovdu [1, s.236; 9, s.296]. Bu zaman Qazax sancağının başçısı Nəzər xan yenidən Səfəvi hakimiyyətini qəbul etdi və sultan titulu aldı. Onun varisi Mustafa bəyə şah I Abbas xan rütbəsi verməklə onu Qazaqlar tayfasının əmiri təyin etdi [5, s.1534].

Beləcə, XVII əsrin başlanğıcında Qazax bölgəsi Səfəvi şahı I Abbas tərəfindən yenidən Qarabağ bəylərbəyiliyinin tabeliyinə qaytarıldı. Tədqiqatçı Z.H.Bayramlının araşdırmasına görə şah I Abbasın (1587-1629) Osmanlı qoşununu Azərbaycanın şimal torpaqlarından çıxarmasından sonra Tiflisə qədər ərazilər yenidən Qarabağ bəylərbəyiliyinə verildi. Bu dövrdə Qazax və Şəmşəddin mahalları ilə yanaşı, Zəyəm mahalı da Qarabağ bəylərbəyiliyin tərkibində idi [2, s.354]. XVII əsrə aid yerli qaynaqlarda Qarabağ bəylərbəyiliyinin tərkibindəki mahal və ölkələr sadalanarkən Axtabad (Axıstabad), Zəyəm ölkələrinin adları da çəkilir.

İsgəndər bəy Münşinin "Tarixe-aləmaraye-Abbasi" əsərində XVII əsrin əvvəlində Qazax elinin Qarabağın Gürcüstanla sərhəd bölgəsində yaşadığı və başçısının Mustafa sultan olduğu qeyd edilmişdir. Həmin mənbəyə görə Mustafa sultan Şəmkir qəsəbəsində Şəmsəddin sultanı Dəli Məhəmməd tərəfindən qətlə yetirilmişdi. Qətlin səbəbi: "Mustafa sultanın atası Nəzər sultan qazaqlar tayfası ilə birlikdə bu dövlətdən üz döndərib rumilərə (osmanlılara – R.Ə.) birləşmiş, ona paşa rütbəsi verilmişdi" [5, s.1577]. Bu hadisədən sonra Qazax elinə Şəmsi xan əmir təyin edilmişdi. Şah ona Fars vilayətində Darabcərdində tiyul verdikdə, o Qazax tayfasının bir hissəsini Qarabağ sərhəddindən köçürüb özüylə ora aparmışdı [5, s.1578].

XVIII əsrin 20-ci illərində Osmanlı sultanı III Əhmədin (1703-1730) qoşunları Səfəvi mülklərini ələ keçirdiyi zaman, Qazax sultanlığı əhalisi könüllü şəkildə 1723-cü ildə Osmanlı dövlətinin tabeliyinə keçdi. Elə həmin vaxt bu ərazi Qazax sancağı adı ilə Gəncə-Qarabağ bəylərbəyiliyinin tərkibindən çıxarılıb, osmanlılar tərəfindən daha öncə ələ keçirilmiş Tiflis əyalətinin tərkibinə qatıldı [4, s.7; 15, c.111]. XVIII əsrin 20-ci illərində Osmanlı hakimiyyəti nümayəndələri daha öncədən Gəncə-Qarabağ əyalətinin tərkibində olan Dəmirçihəsənli nahiyəsini də Tiflis əyalətinin tabeliyinə keçirdilər [4, s.6].

O zamana kimi Qarabağ bəylərbəyiliyinin tərkibində olan Qazax sultanlığının Qazax sancağı adı ilə Tiflis əyalətinə birləşdirilməsi onunla bağlı idi ki, həmin vaxt Qarabağ bəylərbəyiliyinin çox hissəsi hələ Osmanlı qoşunları tərəfindən işğal edilmədiyindən, Osmanlı hakimiyyəti belə addım atmışdı. Həm də Qazax sultanlığı əhalisi könüllü şəkildə Osmanlı dövlətinin hakimiyyətini qəbul etdiyi üçün

Səfəvi dövründən bu bölgəni idarə edən Mir Əli bəy Qazax sancağının hakimi vəzifəsində saxlanmışdı [15, c.111].

Osmanlı imperiyası XVIII əsrin 20-ci illərində Cənubi Qafqaz ərazilərini işğal etdiyi zaman yeni fəth edilən ərazilərdə öz inzibati-ərazi bölgüsünü tətbiq etdi: vilayət (əyalət) – sancaq – nahiyə – qəriyə – kənd. Vilayətin (əyalətin) ərazisi Səfəvi dövlətindəki bəylərbəyiliyə uyğun gəlirdi. Vilayətin (əyalətin) ali hərbi-inzibati, siyasi və maliyyə hakimiyyəti müharibə dövründə ***sərəsgərin*** (hərfi mənası əsgər başçısı – R.Ə.), dinc vaxtlarda isə ***mühafız*** adlandırılan Osmanlı sərkərdəsinin əlində cəmləşdirilirdi. Osmanlı sultanı bu məsul vəzifəyə ən çox fərqlənmiş türk sərkərdələrdən birini təyin edirdi. Vilayət (əyalət) sancaqlara bölünürdü. Sancağın hüdudları Səfəvi dövlətində "ölkə", mahal, sultanlıq adlanan inzibati vahidlərə uyğun gəlirdi. Sancaqlar da öz növbəsində mahal və ya nahiyələrə bölünürdü. Hər nahiyənin tərkibində 50-60 kənd olurdu. Nahiyələr də bir neçə kəndin birləşdiyi qəriyələrdən ibarət idi.

Sancaq hakimi – sancaqbəyi, mahal və ya nahiyə hakimi – naib və kəndi idarə edən – kəndxuda vəzifəsinə isə yerli feodal nümayəndələri təyin edilirdi [16, c.14; 1, s.340]. Osmanlı hakimiyyəti təmsilçiləri yerli feodal hakimlərinin, kiçik və orta məmur təbəqəsinin vasitəsi ilə mövqelərini möhkəmləndirməyə çalışırdılar. Ona görə də, yerli əhali içərisində nüfuzu olan əyanları sancaqbəyi, naib, kəndxuda vəzifələrinə təyin edirdilər və ya daha əvvəldən bu vəzifələri icra edən və Osmanlı hakimiyyətinə loyal olan şəxsləri vəzifələrində saxlayırdılar. Artıq yuxarıda qeyd edildiyi kimi, Səfəvi dövründən Qazax ölkəsini idarə edən Mir Əli bəyin Osmanlı ağalığı dövründə Qazax sancağının hakimi vəzifəsində saxlanması da bununla əlaqədar idi.

Osmanlı imperiyası Azərbaycan ərazilərini XVIII əsrin 20-ci illərində fəth etdikdən dərhal sonra, XVI əsrin 90-cı illərində olduğu kimi, işğal etdiyi bölgələrdə əhalini və bütün əmlakını, əkin sahələrini və digər gəlir qaynaqlarını siyahıya almağa başladı. Osmanlı məmurlarının – dəftərdarlarının həmin dövrlərdə tərtib etdikləri bu təhrir dəftərləri həmin dövrdə əhalinin ümumi sayı və etnik tərkibi ilə bağlı göstəricilərin, faktik materialın müqayisəli təhlilinin aparılması üçün çox əhəmiyyətlidir. Hər iki halda, təhrir dəftərləri "müfəssəl" və "icmal" dəftərləri olmaqla 2 cür tərtib edilmişdi.

1728-ci ildə osmanlılar tərəfindən tərtib edilmiş "Tiflis əyalətinin müfəssəl dəftəri"nin 63 səhifəsi Qazax sancağına aiddir. "Tiflis əyalətinin müfəssəl dəftəri"nə görə bu əyalətə daxil olan Qazax sancağı (livası) dörd nahiyədən ibarət idi. Bu nahiyələrin adları həmin qaynaqda İncə, Çuvar, Axstav (Axıstabad) və Türk nahiyələri [10, s.9] kimi əks olunmuşdur. 1728-ci ildə Qazax sancağına aid nahiyələrin illik gəlirləri və əhalisinin sayı həmin mənbə əsasında tərtib edilmiş aşağıdakı cədvəldə əks olunmuşdur.

1728-ci ildə Qazax sancağına aid nahiyələrin illik gəlirləri və əhalisi

Nahiyə	*İllik gəlir (axça ilə)*	*Kənd və camaatın sayı*	*Vergi ödəyən müsəlmanlar*	*Vergi ödəyən qeyri-müsəlmanlar*
İncə	185100	55	81	117
Çuvar (Cuvar)	267100	67	391	186
Axstav (Axstabad)	451710	75	245	314
Türk	132600	33		42
Cəmi	**1036510**	**230**	**717**	**639**

Cədvəldən aydın olur ki, 1728-ci ildə illik gəliri 1036510 axça olan Qazax sancağında 230 kənd, məzrəə (tərk edilmiş yaşayış məntəqəsi) və qışlaq var idi. Amma onların heç də hamısında yaşayış yox idi. Müfəssəl dəftərdəki məlumatlara görə, İncə nahiyəsindəki 55 yaşayış məntəqəsindən 30-da, Çuvar nahiyəsindəki 67 yaşayış məntəqəsindən 14-də, Axstav (Axıstabad) nahiyəsindəki 75 yaşayış məntəqəsindən 45-də, Türk nahiyəsindəki 33 yaşayış məntəqəsindən 25-də, başqa sözlə, bütün sancaq üzrə qeydə alınmış 230 yaşayış məntəqəsinin yarıya qədərində – 114-də əhali yaşamırdı. Bu hal həmin bölgələrdə sıx-sıx hərbi əməliyyatlar baş verməsi, həmçinin yerli əhalinin bir qisminin Osmanlı ağalığını qəbul etməyib, Səfəvi mülkələrinə köçməsi ilə bağlı idi.

Başqa bir tədqiqat əsərində XVIII əsrin 20-ci illərinin sonu – 30-cu illərinin əvvəlində Qazax sancağında 205 kənd olduğu əks olunmuşdur. Tədqiqatçı T.T.Mustafazadə bu kəndlərdən 95-nin hə-

min dövrdə əhali tərəfindən tərk edilmiş vəziyyətdə olduğunu qeyd etmişdir [15, c.112]. Kəndlərin sayındakı fərqin səbəbi, bizim fikrimizcə, görünür ki, bu tədqiqatçının istinad etdiyi mənbədə qışlaqlar daimi yaşayış məntəqəsi kimi qeyd edilməmişdir. Yenə də T.T.Mustafazadənin yazdığına görə, bəhs olunan dövrdə Qazax sancağında 1.417 nəfər vergi ödəyicisi var idi. Lakin onların dörddə biri aztorpaqlı və ya torpaqsız idilər. Ona görə də Osmanlı vergiyığanları Qazax sancağından ildə yalnız 1.030.610 axça gəlir əldə edə bilirdilər. Bu da hər kəndli ailəsindən 723 axça vergi toplanması demək idi. Elatlardan alınan vergi isə bundan 2 dəfə az idi [15, c.125].

"Tiflis əyalətinin müfəssəl dəftəri"ndə Qazax livasında 1728-ci ildə mövcud olmuş yaşayış məntəqələrinin adları, əhalisinin sayı və ödədiyi verginin miqdarı əks olunmuşdur. Həmin mənbədən aydın olur ki, bəhs edilən dövrdə ***Qazax sancağı üzrə cəmi 230 kənd, məzrəə və qışlaq var idi, 717 nəfər vergi ödəyən müsəlman, 639 nəfər qeyri-müsəlman yaşayırdı, ildə 1.036.510 axça vergi gəliri əldə edilrdi*** [10, s.38-45; 274-328]:

Nəticə. Qazax sancağı üzrə bu göstəricilərdən aydın olur ki, Osmanlı işğalı dövründə bölgənin müsəlman şiə əhalisi təqiblərdən ehtiyat etdiyi üçün Səfəvi ağalığında qalmış yerlərə, dağlıq ərazilərə sığınmaq məcburiyyətində qalmışdı. Ona görə də, müsəlman əhalinin sayında ciddi azalma, müsəlman kəndlərinin kütləvi tərk edilməsi baş vermişdi.

XVIII əsrin 30-cu illərində Nadir xan həmin yerləri yenidən Səfəvi hakimiyyətinə tabe etdikdən sonra öz sərkərdəsi Sübhanverdi xanı Qazax sultanı təyin etdi. Elə o zaman Qazax sultanlığı yenidən Qarabağ bəylərbəyliyinə tabe edildi. 1736-cı ildə Nadir xan Muğanda şah elan edildi. Lakin Qarabağ bəylərbəyi Uğurlu xan Ziyadoğlu Qacar bu qərarla razılaşmadığını bildirdi. Bu səbəbdən Nadir şah taxta çıxandan sonra Uğurlu xan Ziyadoğlunun təsirini zəiflətmək üçün, Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarını Qarabağ bəylərbəyinin tabeliyindən çıxarıb Gürcüstan (Tiflis – R.Ə.) valisinin idarəçiliyinə verdi [13, c.172-173]. Maraqlıdır ki, 1739-cu ildə Car-Balakən üsyançıları ilə döyüşdə Nadir şah qardaşı, Azərbaycanın hakimi İbrahim xanın həlak olması xəbərini aldıqda, Gürcüstan sərdarı Səfi xan Baqayirini həmin vəzifəyə təyin etmiş və əmr vermişdi ki, o, Hindistandan geri dönənə qədər Şirvanı dağlıların hücumundan müdafiə etsin [13, c.146].

Nadir şahın ölümündən sonra Kartli və Kaxeti çarları müstəqil siyasət yeritməyə başladılar və Qazax, Şəmşəddil və Borçalı sultanlıqları Gürcüstanın tərkibində qaldı. 1774-cü ildə Kartli-Kaxeti hökmdarı II İraklinin fərmanı ilə Salahlıda hökmranlıq edən Kosa Mirzəli ağanın nəslindən olan Pənah ağa Qazax sultanlığının başçısı təyin edildi. 1801-ci ildə Qazax sultanlığı Rusiyaya birləşdirildiyi zaman bu nəslin nümayəyəndəsi Nəsib ağa hakimiyyətdə idi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə, III c., Bakı: Elm, 2007, 592 s.
2. Bayramov Z.H. Azərbaycan Səfəvi imperatorluğu: Dövlət quruluşu. Bakı, "Füyuzat", 2020, 596 s.
3. Gəncə-Qarabağ əyalətinin icmal dəftəri. Tərtibçi T.Nəcəfli. Bakı, Çaşıoğlu, 2010, 508 s.
4. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). Bakı: Şuşa nəşriyyatı, 2000, 576 s.
5. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). II kitab, Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2014, 1400 s.
6. Qaramanlı H. Gəncə-Qarabağ vilayətinin Osmanlı idarə sisteminə inteqrasiyası // 1595-ci il tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri "BİROL GROUP" MMC, Bakı, 2022, s.31-49
7. 1595-ci il tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri (Ön söz, araşdırma, tərcümə, qeyd və şərhlər tarix üzrə fəlsəfə doktoru, dosent Hüsaməddin Qaramanlınındır). "BİROL GROUP" MMC, Bakı, 2022, 420 s.
8. Nəcəfli T.H. "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri" haqqında // Gəncə-Qarabağ əyalətinin icmal dəftəri. Bakı, Çaşıoğlu, 2010, s.6-13.
9. Nəcəfli T.H. Səfəvi-Osmanlı münasibətləri (Türkiyə tarixşünaslığında). Bakı: Turxan NPB, 2014, 516 s.
10. Tiflis əyalətinin müfəssəl dəftəri: Borçalı və Qazax (1728-ci il). Ön söz, tərcümə və şərhlərin müəllifi akademik Şahin Mustafayev. 2-ci təkmilləşdirilmiş nəşr. Bakı: "Elm", 2022, 352 s.

11. Kırzıoğlu F.M. 1593 yılı Osmanlı vilayet tahrir defterinde anılan Gence-Karabağ sancakları "ulus" ve "oymak"ları // Atatürk Üniversitesi Fen-Edebiyat Fakültesi Araştırma Dergisi, 1979, sayı 10 (Ahmet Caferoğlu Özel sayısı), s.199-222.
12. Kırzıoğlu F.M. Osmanlıların Kafkas ellerini fethi (1451-1590). Erzurum, 1976.
13. Бакиханов А.К. Гюлистан-и Ирам. Редакция, комментарии, примечания и указатели З.М.Буниятова. Баку: Элм, 1991, 304 с.
14. Гусейн Ф.А. Османо-сефевидская война 1578-1590 гг. (по материалам трудов османского летописца Ибрахима Рахимизаде). Баку, "Нурлан", 2005, 216 с.
15. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку: Элм, 1993, 240 с.
16. Орешкова С.Ф. Государственная власть и некоторые проблемы формирования социальной структуры Османского общества // Османская империя (система государственного управления, социальные и этно-религиозные проблемы). М., 1986, с.9-18.

РАНА АСАДОВА
Доктор философии по истории, доцент
Институт истории НАНА, Азербайджанский университет

КАЗАХСКИЙ РЕГИОН: ИСТОРИКО-ЭКОНОМИЧЕСКАЯ И ЭТНО-ДЕМОГРАФИЧЕСКАЯ СИТУАЦИЯ (XVI-XVIII ВВ.)

С конца XVI века в Газахском крае происходили важные общественно-политические события и этно-демографические процессы. Сефевидско-османские войны привели к серьёзным изменениям в этническом составе и экономическом положении населении Газахского края. Попадения региона под власть Османской империи в 20-30-х годах XVIII века, а затем восстановление власти Сефевидов и правление Надир-шаха Афшара вновь повлияли как на экономическую жизнь местного населения, так и на этно-демографическую ситуацию. В представленной статье эти вопросы рассматриваются на основе подробных и сводных тетрадей, составленных османскими записными книжками.

Ключевые слова: Газахский регион, Османская администрация, казначей, подробные и сводные тетради, Сефевидский период, этно-демографические изменения.

RANA ASADOVA
Doctor of Philosophy in History, Associate Professor
Institute of History ANAS, University of Azerbaijan

KAZAKH REGION: HISTORICAL, ECONOMIC AND ETHNO-DEMOGRAPHIC SITUATION (16TH-18TH CENTURIES)

Since the late 16th century, the Gazakh region has witnessed significant socio-political events and ethno-demographic processes. The Safavid-Ottoman wars led to significant changes in the ethnic composition and economic situation of the Gazakh region's population. The region's fall under Ottoman rule in the 1720s and 1730s, followed by the restoration of Safavid rule and the reign of Nader Shah Afshar, again impacted both the economic life of the local population and the ethno-demographic situation. This article examines these issues using detailed and summary notebooks compiled by Ottoman notebooks.

Keywords: Gazakh region, Ottoman administration, treasurer, detailed and summary notebooks, Safavid period, ethno-demographic changes.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Hacı Həsənov, t.e.d. İbrahim Zeynalov.